# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ İQTİSADİ TƏRBİYƏNİN MƏZMUNU



**Saidə Nəsibova,**
*Gəncə Dövlət Universitetinin Təhsilin pedaqogikası və metodikası kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: saide.nesibova@gmail.com*

**UOT**: 37;338

**Xülasə.** *Məqalə ümumtəhsil məktəblərində iqtisadi tərbiyənin məzmununa həsr olunub. Məktəblərdə iqtisadi tərbiyənin aşılanması üçün təhsilalanlarda sahibkarlıq ruhunun formalaşdırılması, puldan təyinatı üzrə düzgün istifadə edilməsi, iqtisadi anlayışların dərki və əhəmiyyəti ilə bağlı hansı biliklərin verilməsi məqalədə əks olunub. Məqsəd iqtisadi tərbiyənin fənlərarası inteqrasiya şəraitində necə aşılanması və nəticənin də arzuedilən olmasıdır.*

***Açar sözlər:*** *iqtisadi tərbiyə, iqtisadi biliklər, iqtisadi sistem, sahibkarlıq, pul, fənlərarası inteqrasiya.*
***Key words:*** *economic education, economic knowledge, economic system, entrepreneurship, money, interdisciplinary integration.*
***Ключевые слова:*** *экономическое образование, экономические знания, экономическая система, право собственности, деньги, междисциплинарный интеграция.*

İqtisadi biliklərin aşılanması üçün məktəblərdə xüsusi bir fənn tədris edilmədiyinə görə iqtisadi tərbiyənin tətbiqi məqsədi ilə təhsilverən mövcud durumu şagirdlərin xeyrinə dəyişməyi bacarmalıdır. Bunun üçün xüsusi iqtisadi təhsil alıb, ölkənin iqtisadi sistemini dərinliklərinə qədər bilməyə ehtiyac yoxdur. Bəs məktəblərdə iqtisadi tərbiyənin aşılanması, kiçikyaşlı məktəblilərdə sahibkarlıq ruhunun formalaşdırılması, puldan təyinatı üzrə düzgün istifadə edilməsi, iqtisadi anlayışların dərki və əhəmiyyəti ilə əlaqədar hansı biliklər verilir?

Məktəblərdə ibtidai sinifdən tədris olunmağa başlayan *həyat bilgisi fənni* ilə şagirdlər ökənin iqtisadi durumu, mövcud iqtisadi potensialı, valyuta sistemi, iqtisadi istiqamətlər, puldan düzgün istifadə, enerji təminatı, ölkənin faydalı qazıntıları ilə bağlı məlumatlara yaş səviyyələrinə uyğun şəkildə yiyələnirlər. 1-ci sinif həyat bilgisi dərsliyində təhsilalanlar ilk dəfə olaraq daha elmi səviyyədə pulla tanış olurlar. Azərbaycan milli valyutasının dəyəri, görkəmi, üzərindəki xüsusi işarələr, metal pullar və kağız əskinaslar haqqında kifayət qədər informasiya əldə edirlər. Eyni zamanda şagirdlər elə həmin dərslikdə "büdcə", "gəlir", "xərc" anlayışlarını, ailənin büdcəsinin, gəlirinin və aylıq xərclərinin nə qədər təşkil etdiyini və necə idarə edilməli olduğunu öyrənirlər. Həmin dərslikdə çox maraqlı bir tapşırıq diqqəti cəlb edir: "Gündəlik cibxərcliyi ilə bunlardan hansını almaq olar?" – deyə sual verilir, tapşırığın cavab hissəsində şəkillərlə variantlar göstərilir və variantlarda "velosiped",

"kitab", "bulka" və "oyuncaq at" təqdim edilir [1, s.34]. Ailədə iqtisadi tərbiyəyə yiyələnmiş və məktəbə yola salınarkən cibxərcliyini alıb ondan təyinatı üzrə necə istifadə olunacağını bilən şagird doğru variantı seçəcək.

"Daha böyük düşünmək lazımdır" fikrini dəstəkləyən bəzi elm adamlarının ideyaları baxımından məsələyə yanaşsaq, şagird ona verilən gündəlik cibxərcliyini xərcləməyib, ac qalıb, pulunu toplayıb velosiped almaq xəyalına da düşə bilər. Valideyn övladından gündəlik xərc hesabatı tələb etməsə, vəziyyət elə bu minvalla da davam edəcək və xoşagəlməz nəticələr doğuracaq. Əgər şagird pulu toplayıb velosipeddən daha ucuz olan kitab və ya hansısa dəftərxana ləvazimatları alacaqsa, bu zaman valideynlərlə məsləhətləşmələr şəraitində şagirdin bu addımı təqdirəlayiq hesab oluna bilər.

2-ci sinif həyat bilgisi dərsliyində isə şagirdlərə məzmun və ideya yükü kifayət qədər əhəmiyyətli olan "Cibxərcliyi" adlı hekayə təqdim olunur [2, s.62]. İqtisadi tərbiyə anlayışının nə olduğunu dəqiq şəkildə anlamaq üçün elə bu hekayəni oxumaq və müəllifin oxucuya çatdırmaq istədiyi ideyanı dərk etmək kifayət edir. Hekayədə iqtisadi tərbiyə ilə bağlı xırda problemləri olan azyaşlının puldan həftə ərzində düzgün, qənaətlə istifadə edə bilməməsi, atasının sonradan məsləhəti və valideynin qazancı ilə övladının tələb etdiyi pulun çarpazlaşması və nəticə əks olunub. Bax beləcə, puldan düzgün istifadə olunmadıqda ya lüzumsuz məhsullara xərclənir, ya da vaxtından tez bitir.

Bir gün Sokratdan soruşurlar: "Sən nə üçün çox vaxt yeniyetmələrlə həmsöhbət olursan?" Deyir: "ona görə ki, nazik və tər budaqları düzəltmək asandır, təravəti getmiş, qabığı qurumuş, üzü bərkimiş ağacı düzəltmək isə mümkün deyildir" [3, s.173]. Həqiqətən də məktəblilərə tərbiyənin müxtəlif tərkib hissələrinin düzgün şəkildə aşılanmasına birmənalı şəkildə aşağı siniflərdən etibarən başlanılmalıdır.

Şagirdlər artıq ibtidai təhsil səviyyəsini yekunlaşdırıb ümumi orta təhsil səviyyəsinə qədəm qoyduğu andan etibarən iqtisadi tərbiyə anlayışının daha da möhkəmlənməsi və şaxələnməsi üçün iqtisadi biliklərin əhatə və məzmun dairəsi də bir qədər qəlizləşir və alileşməyə doğru gedir. Belə ki, 6-cı sinif həyat bilgisi dərsliyində "İqtisadi inkişaf" başlığı altında "bazar iqtisadiyyatı", "tələb", "təklif", 7-ci sinif həyat bilgisi dərsliyində "İqtisadi proseslərdə əməyin rolu" başlığı altında "istehsal", "qeyri-istehsal", "əmtəə" kimi anlayışlar, 8-ci sinif həyat bilgisi dərsliyində isə "Maliyyə" başlığı altında "gəlir", "mədaxil", "məxaric", "borc", "büdcə", "dövriyyə", "inflyasiya", "kapital", "vergi" kimi anlayışlar şagirdlərin diqqətinə çatdırılır və bu terminlərin onlar üçün hansı dərəcədə əhəmiyyətli olduğu, ümumiyyətlə, dövlət və cəmiyyət səviyyəsində rolu aşılanır.

Orta məktəb səviyyəsində bu qədər iqtisadi biliyə yiyələnmək nə az, nə də çoxdur. Təbii ki, şagirdləri kifayət qədər məna və məzmun yükü olan iqtisadi terminlərlə yükləməyin də heç bir pedaqoji əsası yoxdur. Sadəcə olaraq tədris prosesində iqtisadi biliklərlə bağlı mövcud bazanı fənlərarası inteqrasiya kontekstində daha da genişləndirmək və möhkəmləndirmək mümkündür. Hansı üsulla olur olsun, təki şagird iqtisadi biliklərə faydalı şəkildə yiyələnsin. Bəs bu bizə niyə lazımdır? Ona görə ki, yaranan yeni iqtisadi münasibətlərin xüsusiyyətlərini kim tez başa düşür və öz fəaliyyətini bu yeni xüsusiyyətlərə uyğun şəkildə qurmağı bacarırsa, o da iqtisadiyyatda uğur qazana bilir. Kim yaranan yeni iqtisadi şəraiti dərk edə və işində dönüş yarada bilmirsə, müflisləşir. Belə bir şəraitdə yeni nəslin iqtisadi tərbiyəsinə ehtiyac yaranır [4, s.348].

Məlumdur ki, 6-cı sinifdən etibarən tədris olunmağa başlayan *coğrafiya fənninin müxtəlif* bölmələrində, istər dünya ölkələrinin, istərsə də Azərbaycanın iqtisadi gücü, faydalı qazıntı ehtiyatları, iqtisadi sıçrayış, ağır və yüngül sənaye, istehsal, iqtisadiyyatın özəyini təşkil edən neft və qeyri-neft sektorları və s. ilə bağlı informasiyaların daxilində mövcud olan iqtisadi biliklər də iqtisadi tərbiyə anlayışının möhkəmləndirilməsinə hədəflənib. Dünya və Azərbaycan iqtisadiyyatının uyğun sahələrini əlaqələndirən müəllim, həyat bilgisi fənninin müvafiq bölmələri ilə də inteqrasiyanı təşkil edə bilər. Xüsusilə, 11-ci sinif *coğrafiya dərsliyinin dördüncü* bölməsi "İqtisadi inkişaf istiqamətləri" başlığı ilə iqtisadi biliklərin dərinləşdirilməsinə və coğrafiya daxilində iqtisadi tərbiyə anlayışının reallaşmasına istiqamətlənib [5, s.104].

Mühüm əhəmiyyətə sahib olan *ümumi tarix*

və *Azərbaycan tarixi fənlərinin* tədrisi prosesində də müəllim ayrı-ayrı dövrlərdə mövcud olan dövlətlərin, imperiyaların, çarlıqların, xanlıqların iqtisadi durumu, əhalinin yaşayışı, istehsal vasitələri, büdcəsi, orduya çəkilən xərclər, təhsil üçün ayrılan vəsait, tarixi vergi sistemi, maliyyə axını, əsrlər üzrə iqtisadi siyasət və s. ilə bağlı şagirdlərə tapşırıqlar verməklə yönləndirmələr apararaq iqtisadi tərbiyəni daha da möhkəmləndirmək üçün həm coğrafiya, həm də həyat bilgisi fənni ilə müvafiq inteqrasiyalar təşkil etməklə, bir tərəfdən mövzunun yüksək səviyyədə qavranılmasına, digər tərəfdən isə iqtisadi tərbiyənin aşılanmasına nail ola bilər.

Belə əlaqələndirmələrin sayını artırmaq mümkündür. Məşhur alman pedaqoqu İ.Herbarta görə, tərbiyə məşqdən başqa bir şey deyil, tərbiyə uşaqların idarə olunması prosesidir. Bu cəhətdən də o, tərbiyədə tərbiyə olunanlara təsir göstərəni fəal şəxs, tərbiyə olunan uşaqları isə təsir göstərilən passiv şəxslər hesab etmişdir. O, sübut etməyə çalışmışdır ki, uşaqlar böyüklərin sözlərinə sözsüz əməl etməlidirlər. Azad tərbiyə nəzəriyyəsinin tərəfdarı olan J.J.Russo isə əksini düşünərək qeyd etmişdir ki, uşaqların təbiətinə uyğun gələn vasitələrlə onlara təsir göstərmək prosesi tərbiyədir. Onun əqidəsinə görə uşaqlara öyüd-nəsihət vermək, uzun-uzadı izahat vermək, məruzə oxumaq, cəza vermək, məzəmmət etmək onların təbiətinə, mənliyinə toxunmaq şəxsiyyətin əleyhinə getmək deməkdir [6, s.22-23].

**Nəticə.** Tərbiyənin digər tərkib hissələrindən fərqli olaraq iqtisadi tərbiyə prosesində valideyn və övlad münasibətlərində aktiv və passiv tərəf olmamalı, valideynin istiqamətləndirməsi və uşağın düzgün improvizələri, düzgün seçimləri, düzgün strategiyası ilə proses həyata keçirilməlidir. Valideynin istiqamətləndirməsindən məhrum olan övlad və şəxsi strategiyası olmayan uşaq amili ayrı-ayrılıqda faydalılıq əmsalını da aşağı sala bilər. Ona görə də ailə daxilində düzgün şəkildə bünövrəsi qoyulan iqtisadi tərbiyə məktəbdə müəllim tərəfindən yüksək səviyyədə təkmilləşdirilərsə, nəticə də arzuedilən olar.

## ƏDƏBİYYAT

1. Cabbarlı N., Soltanova G. Həyat bilgisi (1-ci sinif dərslik). “Şərq-Qərb” nəşriyyatı, Bakı, 2020.

2. İbrahimova A., Mehdiyeva G., İbrahimov S. Həyat bilgisi (2-ci sinif dərslik). Aspoliqraf, Bakı, 2018.

3. Tusi N. “Əxlaqi-Nasiri”. “Lider” nəşriyyatı, Bakı, 2005.

4. Kazımov N. Ali məktəb pedaqogikası. Bakı, 2006.

5. Seyfullayeva N., İmrani Z., Şabanova Y. Coğrafiya (11-ci sinif dərslik), Bakı-Nəşr, Bakı, 2018.

6. Ağayev M. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Bakı, 2011.

**S.Nasibova**

## The content of economic education in secondary schools

**Abstract**

The paper is devoted to the content of economic education in secondary schools. The paper considers the kind of knowledge that should be imparted in schools to improve economic education, form entrepreneurial spirit in students, teach them to properly spend funds, give the understanding and explain the importance of economic concepts. The purpose is to find ways of inculcating economic education in the context of interdisciplinary integration and achieving the desired results.

**С.Насибова**

## Содержание экономического образования в средних школах

**Аннотация**

Статья посвящена содержанию экономического образования в общеобразовательных школах. Для этого не нужно получать специальное экономическое образование и глубоко знать экономическую систему страны. Но какие знания преподают в школах о внедрении экономического образования, формировании у школьников предпринимательского духа, правильном использовании денег по назначению, понимании и важности экономических концепций. В то же время, как следует внедрять экономическое образование в контексте междисциплинарной интеграции, чтобы результат был желательным. В этой статье мы постарались уточнить ответы на такие вопросы.